# İNFORMASİYA TEXNOLOGİYALARI MƏRKƏZİNİN İLLİK FƏALİYYƏTİ (2019)

BDU-nun İnformasiya Texnologiyaları Mərkəzi (İTM) 30 elmi-tədris sinfini özündə birləşdirən müasir kompyuter avadanlıqları (1600 kompüter) və proqram vasitələri ilə təchiz olunmuşdur. 2019-cu ildə BDU-nun İnternet şəbəkəsinə qoşulan kompyuterlərin sayı artmış, istismar müddəti başa çatmış kompyuterlər isə yeniləri ilə əvəz olunmuşdur.

"Sabah" qrupları üçün yaradılmış auditoriyalarda elektron lövhələrə, kompyuterlərə və proektorlara proqram və texniki xidmətlər göstərilmişdir.

"Sabah" qruplarının yeni dekanlığının lokal şəbəkəsi yenidən qurulmuşdur. Coğrafiya, Ekologiya və torpaqşünaslıq, Tarix, Filologiya fakültələrinin kafedralarının yeni otaqları, Tədris hissəsinin tyutor otağı, Yeməkxana və Psixoloji xidmət mərkəzinin kompyuterləri ümumuniversitet şəbəkəsinə qoşularaq İNTERNET-ə çıxışı təmin olunmuşdur. İmtahan auditoriyalarının kompyuterlərinə daimi proqram və texniki xidmətlər göstərilmiş, təmiri mümkün olmayanlar isə eyni tipli kompüterlərlə əvəz olunmuşdur. BDU-nun bütün kompyuterləri 2 illik lisenziyalı Kaspersky antivirusu ilə təmin olunmuşdur.

Hesabat ilində "Delta Telekom Ltd" MMM ilə bağlanmış müqaviləyə uyğun olaraq İNTERNET-in sürəti 400 mbit/s olmuşdur. Daxil olan internetin 40 mbit/s sürəti Jurnalistika fakültəsində daim fəaliyyət göstərən studiyaya verilmişdir.

İTM-n İnternet və şəbəkə texnologiyaları şöbəsi 2019-cu ildə gördüyü işlər aşağıdakılardan ibarət olmuşdur:

- BDU saytı daima nəzarət altında saxlanılmış, kənar müdaxilələrin qarşısının alınması məqsədilə lazımi tədbirlər görülmüşdür;
- BDU-nun 100 illik yubileyi ilə əlaqədar 100.bsu.edu.az, Jurnalistika fakültəsində daim fəaliyyət göstərən studiya üçün tv.bsu.edu.az saytları yaradılmiş və fəaliyyətdə olan digər saytlarında rekonstruksiya işləri aparılmışdır;

- BDU və fakültə saytları üçün yeni sayt inzibatçılarının hazırlanması, onlar üçün daimi treninqlərin keçirilməsi davam etdirilmiş və saytin müasir texnologiyalara əsaslanan yeni versiyası üzərində işlər davam etdirilir;
- Internet üzərindən elektron sorğu sistemi yaradılmisdir;
- BDU-nun əməkdaşları və tələbələri üçün elektron poçt (mail-***@bsu.edu.az) xidməti öz işini davam etdirmişdir;
- Universitetin lokal şəbəkəsinin bəzi hissəsi yenidən bərpa olunmuşdur.

BDU-da 2005-ci ildən fəaliyyət göstərən Elmi və tədris işlərinin kompyuterləşdirilməsi şöbəsi əvvəlki illərdə olduğu kimi Boloniya prosesi prinsiplərinin Universitetdə tətbiqi üzrə işçi mərkəzin fəaliyyətdə olması, mövcud tyutor komandasına dəstək verilməsi, yeni tyutor hazırlığı layihəsinin həyata keçirməsi və Virtual Universitetin işinə nəzarət edilməsi işləri davam etdirmişdir. Eyni zamanda şöbədə aşağıdakı işlər də yerinə yetirilmişdir:

- Mühazirə mətnlərinin sistemdə yerləşdirilməsi davam etdirilmişdir;
- Əlavə və qiyabi təhsil alan tələbələrin imtanlarının test üsulu ilə keçirilməsi davam etdirilmişdir;
- Əlavə və qiyabi təhsil alan tələbələrin imtahanlarının keçirilməsi üçün bəzi fənlərin testləri təkminləşdirilib və yeni fənlərin testləri isə yaradılaraq sistemdə yerləşdirilmişdir;
- 2018-2019-cu tədris ilində 10 nəfər tyutor hazırlanmışdır.

2014-cü ildən başlayaraq BDU üçün yaradılmış Elektron Universitet (EU) layihəsi çərçivəsində Tədrisin idarə olunması sisteminin (TİS) genişləndirilməsi və optimallaşdırılması isə davam etdirilir.

İTM əməkdaşları BDU tədbirlərində aktiv iştirak etmişdır. DİM –in təklifı ilə BDU-da yaradılmış sənəd qəbulu komissiyası(SQK) 13 nəfər BDU əməkdaşlarından ibarət olmuşdur. Onlar 1900-ə yaxın abituriyentin elektron ərizəsinin, BDU-ya qəbul olmuş 5400 nəfər abituriyentin və 600 nəfərdən çox bakalavrın təsdiqini DİM-in saytında həyata keçirmişdir.

**İTM-in rəhbəri** **Əzbər Sadayev**